Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Mahir təmsil ustası – Hikmət Ziya

**Hikmət Ziyanın 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Mahir təmsil ustası – Hikmət Ziya :** Uşaq kitabxanalarında Hikmət Ziya yaradıcılığını gənc kitabxanaçılara, oxuculara çatdırılması məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS - nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt. ed. R.Məmmədli ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. - 42s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

## Tərtibçidən

Ədəbiyyat aləmimizdə tanınmış söz ustaları çox olub. Onlar xatırlanarkən ilk yada düşən qələm sahiblərindən biri də Hikmət Ziyadır. Əməkdar incəsənət xadimi, tanınmış şair, təmsil ustası, tərcüməçi, publisist, dramaturq Hikmət Ziya təmsili ədəbiyyatımızda kamil dərəcəyə çatdırmış ilk sənətkar olaraq, özündən sonra zəngin ədəbi irs qoyub getmişdir. Onun təmsillərində oxucu klassik təmsilçilərin işlətdiyi bədii təsvir vasitələrinə rast gəlir. Hikmət Ziyanın ustalığı, bədii fikrinin yeniliyi və kamilliyi ondadır ki, heç kəsi təkrar etmir, həyatdan aldığı mövzuları özünəməxsus üsullarla və obrazlı ifadələrlə canlandırır, çıxardığı əxlaqi nəticə də yeni olur. Məhz ona görə də onlar orijinaldır. Onun dövrün tələbi ilə səsləşən ictimai-siyasi məzmunlu şeirləri, sevgi duyğularını əks etdirən lirik nəğmələri, dərin məzmunlu təmsilləri, nəsr əsərləri, tərcümələri özündən sonra xalqımıza yadigar qalmışdır. Coşqun şair, işgüzar tərcüməçi Hikmət Ziya Ümumittifaq uşaq və gənclər ədəbiyyatı şurasının, “Mozalan” satirik kinojurnalı bədii şurasının, “Azərbaycan pioneri” və “Literaturnıy Azerbaydjan” jurnallarının redaksiya heyətinin üzvü olub. Onun adına “Hikmət Ziya" ədəbiyyat mükafatı təsis edilib. Hikmət Ziya uşaq aləmindən xeyli adda əsərlər yazıb. Lakin biz onu daha çox təmsilçi kimi tanıyırıq. Onun satirik istedadı bu sahədə çox parlaq görünüb. Onun təmsillərində əliəyrilər, yaltaq və ikiüzlülər satira atəşinə tutulur. Qısa təmsillərinin əksəriyyəti öz ədəbi taleyi olan, həyat və insan haqqında yazılmış əsərlərdir. H.Ziyanın təmsilləri fəlsəfi ümumiləşdirmələr yolu ilə yaranmış, daha tutarlı səslənmişdir. Vəsait Hikmət Ziyanın 90 illik yubileyi münasibətilə respublikamızda fəaliyyət göstərən uşaq kitabxanalarında keçiriləcək tədbirlərə köməklik məqsədilə yazılmışdır. Vəsait iki hissədən ibarətdir. I hissə Hikmət Ziyanın həyat və yaradıcılığından, II hissə isə kitabxanada şairə həsr olunmuş yubiley tədbirlərindən bəhs edir.

## I. Həyat və yaradıcılığı

Həyatının 25 ilini balalarımızın çox sevdiyi “Göyərçin” jurnalı redaksiyasında əməkdaşlıq edən Əfəndiyev Hikmət Ziya oğlu 13 may 1929-cu ildə Şəki şəhərində anadan olmuşdur. Ağdam şəhərində 1 saylı orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır (1947-1952). “Azərbaycan pioneri” qəzeti redaksiyasında ədəbi işçi, ədəbiyyat və incəsənət şöbəsinin müdiri (1952-1969), “Göyərçin” jurnalı redaksiyasında poeziya şöbəsinin müdiri, məsul katib vəzifələrində işləmişdir. (1969-1995) Ədəbi yaradıcılığa 1952-ci ildə “Azərbaycan pioneri” qəzetində çap edilən “Qeqola” adlı ilk şeiri ilə başlamışdır. Sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. İlk satirik şeirləri, eyni zamanda “Atamın hədiyyəsi” (1957), “Bahar gözəldir, ya qış?” (1959). “Milçək ürəyi” (1960) kitabları Hikmət Əfəndiyev imzası ilə çap olunmuşdur. “Sınaq”, “Ekiz qardaşlar” pyesləri tamaşaya qoyulmuşdur. Librettolarına (“Nənəmin nağılı”, “İkilərin sərgüzəştləri”, “Solğun çiçəklər”) və şeirlərinə musiqi bəstələnmişdir. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə tərcümə olunmuşdur. Ölkənin ayrı-ayrı şəhərlərində keçirilən uşaq və gənclər kitabı həftələrində, eləcə də təşviqat qatarı ilə səfərlərdə, yubiley təntənələrində iştirak etmişdir. “Mozalan” satirik kino-jurnalı bədii şurasının, Ümumittifaq uşaq və gənclər ədəbiyyatı şurasının, “Literaturnıy Azerbaydjan” jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Hikmət Ziyanın kino yaradıcılığında da böyük xidmətləri olmuşdur. “Əli Bayramlı” (1971), “Azərbaycan qadını” (1974), “Qərib cinlər diyarında” (1977), “Dəcəl dovşan” (1981) filmlərinin ssenari müəllifi olmuş və filmlər ekrana çıxmış, tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır. “Qərib cinlər diyarında” həm böyüklərin, həm də kiçiklərin sevimli filminə çevrilmişdir. Hikmət Ziyanın yazdığı “Son Türk əlifbası” kitabı elmi-pedaqoji biliyindən xəbər verir.

Bütün bu xidmətlərinə baxmayaraq Hikmət Ziya daha çox uşaq şairi kimi ad qazanmışdı. Hikmət Ziya sözün əsl mənasında böyük şair idi. Onun şeirləri aktuallığı və təbiiliyi, səmimiliyi ilə seçilir. Hikmət Ziya ədəbiyyatımızda hər şeydən əvvəl öz təmsilləri ilə nəzəri cəlb etmişdir. Üç mindən çox təmsil müəllifi olan Hikmət Ziya bu təmsillərin çoxunu sovet dövründə yazmışdı. Lakin bu təmsillərin hər biri öz məna və məzmununa görə bütün dövrlərə aid ola bilər. Dovşan sifətində qorxaqlıq, ceyran sifətində gözəllik, qurd simasında yırtıcılıq, ayıda yekəpərlik, tülküdə hiyləgərlik, aslanda igidlik onun təmsillərinin leytmotivi idi. Hikmət Ziyanın Azərbaycan ədəbiyyatına gətirdiyi ən böyük yenilik bu janrda maksimum yığcamlığa, lakonikliyə, sadəliyə riayət etmək olmuşdu. Onun təmsilləri həyatımızda, cəmiyyətimizdə olan nöqsanları, qüsurları əks etdirmişdir. Şair yaşadığı qısa ömründə Azərbaycan ədəbiyyatına gözəl incilər bəxş etmişdir.

Hikmət Ziya tərcümə sahəsində də bir çox işlər görmüş, rus şairi A.S.Puşkindən çoxlu sayda tərçümələr etmiş, Firdovsinin "Şahnamə" əsərindən "Rüstəm və Söhrab" dastanını dilimizə çevirmişdir. Bundan başqa onun "Qan ocağı", "Qonşu qonşu olsa, kor qız da ərə gedər", "Saqqalın kəraməti", "Pul dəlisi", "Qızılgül", "Bir saç telinin qiyməti" kimi qiymətli komediyaları səhnəmizə yadigar əsərlərindəndir.

Təmsil janrı qədim janrdır. Bu janrda bir çox şairlər qələmlərini sınamışlar. Azərbaycan ədəbiyyatında A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Şaiq dəyərli sənət əsərləri yaratmışlar. Hikmət Ziyanın təmsillərini sevdirən və onun müəllifini şöhrətləndirən əsərlərin uşaqları maraqlandıran, düşündürən olmasıdır. Əmək, dostluq, qəhrəmanlıq Hikmət Ziya təmsillərində geniş təbliğ olunur. Bu təmsillər oxucuda nəcib əxlaqi sifətlər tərbiyə edir, pis hərəkətlərdən uzaqlaşdırır.

Hikmət Ziya əsrin-zamanın havasını yaxşı duyan şairlərdən olmuş, onun təmsil sahəsindəki uğurları geniş oxucu rəğbəti və

oxucu alqışı qazanmışdır. Bu təmsilləri oxuyanda biz tənqid hədəfində ikiüzlüləri, yaltaqları, yalançıları açıq-aydın görə və tanıya bilərik. Təmsillərin gücü-qüvvəti bundadır ki, müxtəlif heyvanların vasitəsilə insanlarda olan naqis sifətlər, nöqsanlar, yaramaz, mənfi cəhətlər üzə çıxarılır. Məsələn:

Hələ Tütək qayrılmamış:
- Çalınıram, - dedi Qamış ***və yaxud***
Alma Qurdu almanı təkcə yesəydi, nə dərd?!
Həm də onu içindən çürüdürdü bu namərd.

Bu cür həmişə özündən razı qalanlar və onu aləmə car çəkənlər, insanı “içindən çürüdənlər”, riyakarlar və bu qəbildən olan mənfi tiplər Hikmət Ziya təmsillərində çoxdur. Bu təmsillər ibrətamizdir, hikmətlidir, aforizmlə doludur. Onun bu mənfi qəhrəmanları bizim cəmiyyətdə yaşayırlar. Tülkü xislətli, canavar dişli, milçək ürəkli, ayı düşüncəli insanlar az deyildir. Meşələrə od vuran, çaylara, dənizlərə zəhər tökən, el malına göz dikən, aləmi bir-birinə çaxnaşdıran elə bunlardır.

Hikmət Ziya öz təmsillərində daha çox heyvanlardan və əşyalardan istifadə edirdi. Amma onun bütün təmsillərinin sətiraltı mənası adamlar idi. O, öz sözünü heyvanların dili ilə bu günün uşağının sabahkı ağsaqqalına, qara saqqalına deyirdi.

Hikmət Ziya Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüş (1986), Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir (1988). Hikmət Ziya 2 avqust 1995-ci ildə Bakı şəhərində vəfat etmişdir.

## II. Yubiley tədbirlərinin keçirilməsi

Hikmət Ziyanın 90 illik yubiley ilə əlaqədar uşaq kitabxanalarında Hikmət Ziyanın yaradıcılığını geniş təbliğ etmək üçün maraqlı tədbirlər həyata keçirilməlidir. Kitabxanalarda tədbirlə bağlı sərgilərin təşkili vacibdir. Sərgilərin təşkilində aşağıdakı başlıqlardan istifadə etmək olar: *"Balalarımızın sevimli şairi Hikmət Ziya"*, *"Müasir Azərbaycan təmsilinin Krılovu"*, *"Mahir təmsil ustası: Hikmət Ziya"*, *"Hikmət Ziyanın sənət dünyası"*, *"Mənəvi sərvətimiz Hikmət Ziya"*, *"Sözün Hikməti"*, *"Uşaqlara töhfə"*, *"Təmsil ustası"*, *"Hikmət baba"* və s. Elm və mədəniyyət xadimlərinin Hikmət Ziya haqqında söylədikləri fikirlərdən isə plakatlar hazırlamaq olar.















## Görkəmli şəxsiyyətlər Hikmət Ziya haqqında

Hikmət Ziya Azərbaycan yazılı ədəbiyyatı tarixində istedadını illər uzunu müntəzəm surətdə təmsil yazmağa həsr etmiş və bir janr olaraq təmsili ədəbiyyatımızda kamil dərəcəyə çatdırmış ilk sənətkardır.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

Hikmət Ziya Azərbaycan ədəbiyyatının görkəmli xadimlərindən biri idi. Hikmət Ziyadan söhbət gedəndə hər şeydən çox müasir ədəbiyyatımızda təmsil janrının görkəmli nümunələrini yaradan gözəl bir şair canlanır. Xüsusilə xırda təmsilləri ədəbiyyatımız üçün Hikmət Ziya icad etmişdir.

**Bəkir Nəbiyev,**
*filologiya elmləri doktoru*

Təmsil janrında Hikmət Ziya ustaddır, çünki uzun illər boyu bu janrın ağır yükünü çiynində şərəflə daşıyır, heç kimə bənzəmir, heç kimi təkrar etmir.

**Məmməd Araz,**
*Xalq şairi*

Hikmət Ziya yüzlərlə təmsilin, onlarla şeir toplusunun müəllifidir. Şairin təmsilləri və mənzum (şeirlə yazılan) nağılları uşaq ədəbiyyatı xəzinəsini zənginləşdirən kamil nümunələrdir.

**Zahid Xəlil,**
*professor,*

Hikmət Ziya öz dərin ictimai məzmunlu, lakonik təmsilləri ilə ümumxalq məhəbbəti qazanmış sənətkardır. Bu bədii parçaların hər biri tədqiqatçı üçün zəngin material vermək gücündədir. Şairin təmsillərində dövrün bütün sosial bəlalarına

təmsilçinin kinayəli münasibəti öz əksini tapıb. H.Ziyanın təmsillərində xalq hikmətinin ziyası var.

**Rafiq Yusifoğlu,**
*şair, ədəbiyyatşünas*

Hikmət Ziya həyatını uşaq ədəbiyyatına həsr etmiş fədakar şair, əla təmsilçidir.

**Sergey Mixalkov,**
*Rus şairi*

Təmsil – Hikmət Ziyanın həyatıdır, sevgisidir.

**Tofiq Mahmud,**
*şair*

**Konfrans:** Kitabxanalarda məktəblilərin iştirakı ilə **"Bənzərsiz təmsil ustadı Hikmət Ziya..."** adlı **oxucu konfransı** da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Hikmət Ziyanın yaradıcılığına yaxından bələd olan ədəbiyyatşünasların, yazıçı və şairlərin çıxışları dinlənilir.

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (**Hikmət Ziyanın yaradıcılığında təmsillər**);
2. Hikmət Ziyanın həyat və yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, ədəbiyyatşünasların, jurnalist, yazıçı və şairlərin çıxışları;
3. Məktəblilərin Hikmət Ziyanın təmsilləri əsasında təqdim etdiyi səhnəciklər;
4. Konfransın yekunu.

*Konfransı açan kitabxanaçı təmsil janrı, yaranma səbəbi, öz yaradıcılığında bu janra müraciət edən şairlər haqqında məlumat verir. Sonra isə konfrans iştirakçılarına söz verilir.*

**Kitabxanaçı:** Ədəbiyyat yaranandan söz adamları "ayaqlarında dəmir çarıq, əllərində dəmir əsa" ədalət axtarışına çıxıblar. Amma ədaləti "gördüm" deyən tapılmayıb ki, tapılmayıb. Şairlər, el müdrikləri tamahkarlığı, acgözlüyü, ədalətsizliyi, yetim malına göz dikməyi, paxıllığı, satqınlığı, bir sözlə, bütün neqativ halları başqa ədəbi janrlarla bərabər olaraq təmsillərdə də ifadə ediblər. İnsanları heyvanların dili ilə müdrikliyə, ədalətə, yaxşı əməllərə səsləyiblər. Təmsil – epik növün ən qədim janrlarından biridir. Təmsil həcmcə kiçik olur, lakin dərin məna ifadə edir. Azərbaycan ədəbiyyatında təmsil sahəsində öz sözünü demiş Hikmət Ziya cansız əşyaları insan kimi düşündürür, danışdırır, onların sevincini, qəzəbini göstərir. Uşaqların bütün bunlara inanması şairin qələminin qüdrətindəndir. Gəlin bu mövzuda sözü iştirakçılarımıza verək.

**I iştirakçı:** Təmsilin əsas xüsusiyyəti tənqidi satirik məzmunda olmasıdır. Sənətkar insanlara xas olan nöqsanları, eyibləri ayrı-ayrı əşya, bitki və heyvanların timsalında əks etdirir. Təmsildə təbiət cismləri və heyvanlar şəxsləndirilir - insan kimi danışdırılır. Ədəbiyyatşünaslıqda buna təşxis deyilir. Adətən, təmsilin sonunda müəllif öz fikrini kiçik nəsihət şəklində bildirir. Onu da qeyd edək ki, təmsil əxlaqi-tərbiyəvi və nəsihətli səciyyə daşıyır.

**II iştirakçı:** Ədəbiyyatşünaslar qeyd edir ki, epik növün ibtidai formalarından biri olan təmsil hələ qədim yunan ədəbiyyatında mövcud idi. XVII əsrlərdə yüksək inkişaf səviyyəsinə çatıb. Qədim Romada Fadr (I əsr), qədim Yunanıstanda Ezop (e.ə.VI) nəsrlə yazdığı təmsilləri ilə məşhur idi. Hindistanda III əsrə aid təmsillər toplusu - "Pançatantra" məlumdur. Yeni dövrün ən məşhur təmsil yazanlarından biri fransız şairi Jan Lafonten (XVII əsr) olub.

**III iştirakçı:** Azərbaycan ədəbiyyatında təmsilin ilk nümunələrinə N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasında rast gəlirik. A.Bakıxanov, Q.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, A.Şaiq kimi şairlərimizin təmsilləri məşhurdur. Qeyd edək ki, XX əsrdə Azərbaycan ədəbiyyatında təmsil janrının çiçəklənməsi görkəmli təmsil ustadı Hikmət Ziyanın adı ilə bağlıdır. H.Ziyanın yazdığı təmsillər öz bənzərsizliyi və daşıdığı məna yükü, uşaqların mənəvi inkişafında, tərbiyəsində oynadığı rolu ilə seçilir. Təmsillər, sözün həqiqi mənasında, uşaq və gənclərin həyatında, düşüncəsində, onların doğruluğa, düzlüyə, halallığa, sədaqətə bağlanmasında bənzərsiz iş görür.

**IV iştirakçı:** Tanınmış uşaq şairi, "Göyərçin" jurnalının baş redaktoru, professor Rafiq Yusifoğlu Hikmət Ziyanın təmsillərindən söz açaraq yazır: "...1952-ci ildə "Qoqola" adlı ilk şeiri mətbuatda işıq üzü görən H.Ziya 1955-ci ildən təmsil janrına daha çox maraq göstərib. Şairin 1986-cı ildə çap olunan "Ömrümün payı" adlı kitabına yazdığı ön sözdə oxuyuruq: "Bir gün gözəl şairimiz İslam Səfərli mənə dedi ki, təmsillərin xoşuma gəlir, bu sahədə üzəngi parlada bilərsən. Bu sözlər məni ruhlandırdı, daha çox təmsillər yazdım".

**V iştirakçı:** Təmsilə olan maraq onu bu janrın sirlərini öyrənməyə həvəsləndirib, H.Ziya Ezopun, Lafontenin, Krılovun, Qasım bəy Zakirin, Seyid Əzim Şirvaninin, A.Bakıxanovun və başqa görkəmli təmsil ustalarının əsərlərini sevə-sevə oxuyub. Bütün bunlar şairin öz yaradıcılığına da təsirsiz qalmayıb.

**VI iştirakçı:** Xalq yazıçısı Mirzə İbrahimovun H.Ziyanın təmsillərinə yüksək dəyər verməsi onun bu sahədə fəallığını daha da artırıb. Böyük rus təmsilçisi İvan Krılovun təmsillərini dilimizə ustalıqla tərcümə edən H.Ziya bu janrın sirlərinə yaxından bələd olduqca, daha gözəl təmsillər yazmağa başlayıb. Təsadüfi deyil ki, görkəmli alim, şair Sergey Mixalkov şairə vurduğu teleqramda onu "əla təmsilçi" adlandırıb. Şairin təmsillərini təhlil edən, onlara yüksək dəyər verən

ədəbiyyatşünaslar onu "müasir Azərbaycan təmsilinin Krılovu" adlandırıb". O, uşaq aləmindən xeyli adda əsərlər yazıb. Lakin biz onu daha çox təmsilçi kimi tanıyırıq. Onun satirik istedadı bu sahədə çox parlaq görünüb...

**VII iştirakçı:** H.Ziya yazırdı:

Şüşə çiliкləndi dönsün almaza,
Süpürüb yığdılar bir xəkəndaza.

Yaxud,

Kim keçidən qorxub qaçsa,
Ona hücum eləyirdi.
Buynuzları ələ keçsə,
Yazıq-yazıq mələyirdi.

Rafiq Yusifoğlu qeyd edir ki, H.Ziyanın yığcam, dərin mənalı təmsilləri çoxdur: "Bu bədii parçaların hər biri tədqiqatçı üçün zəngin material verməк gücündədir. Şairin təmsillərində dövrün bütün sosial bəlalarına təmsilçinin kinayəli münasibəti öz əksini tapıb. H.Ziyanın təmsillərində xalq hikmətinin ziyası var".

**VIII iştirakçı:** Hikmət Ziyanın təmsilləri həqiqətən də ibrətamiz və uşaqların yadında qalandır. Uşaqlar bu təmsilləri asanlıqla yadında saxlayır və ondan dərs götürməyə çalışırlar. O, *"Fil udan cücə"* təmsilində yazırdı:

İlk dəfə hindən çıxıb,
Yan-yörəsinə baxıb,
Cücə böcək udanda
Civildədi biaram:
- Mən istəsəm, lap filin
Özünü də udaram!..

Yaxud, *"Tülkü ikiüzlülüyü"* təmsilində yazırdı:

Tülkü bacarsa, Qurdu
Didməyə də hazırdı.
Gəl ki, onun haqqında

Tərifnamə yazırdı.
Həqiqətən də gözəl təmsillərdir.

**IX iştirakçı:** Uşaqlarımızın mənəviyyatının formalaşdığı dövrdə müasir təmsillər yazılır. İndiki uşaqların düşüncəsi, həyata baxışı tamam başqa formada inkişaf edir, onların maraq dairələri tamamilə fərqlidir. Müasir təmsil ustadı onların ruhunu tutub gözəl nümunələr yaratmağa çalışır. Bəli, ədəbiyyat inkişaf edirsə, digər janrlarla yanaşı, təmsil də inkişaf etməlidir. Ümumiyyətlə, təmsil janrı simvollarla zəngin olduğu üçün, uşaqlara, böyüklərə daha maraqlı görünə bilər. Təmsil elə bir janrdır, ondan hər bir insan dərs götürə bilər. Təmsil əsasən sözü birbaşa demək mümkün olmayanda yaranır. Bu gün təmsil janrı, uşaq ədəbiyyatında qorunub saxlanıb və uşaq yazarları bu janrın xüsusiyyətlərindən istifadə edirlər.

**X iştirakçı:** Təmsillərin uşaqların mənəvi tərbiyəsində oynadığı rola gəlincə, bu janrın əvəzi yoxdur: "Uşaqlara heyvanların timsalında hansısa bir fikri çatdırmaq üçün əvəzedilməz janrdır. Təmsildə paralellər elə aparılmalıdır ki, anlaşıqlı və ibrətamiz olsun. Ümumiyyətlə, uşaq ədəbiyyatında təmsil müasir dövr üçün işlənməlidir. Təmsil primitivlikdən maksimum qorunmalıdır. Təmsil çox qədim janrdır. Təmsil sonda ümumiləşir, yəni təmsilin sonluğu onda deyiləcək mənanı vurğulayır. Ustalıq da elə bu ümumiləşdirmənin aparılmasıdır.

*Konfransın sonunda oxucular Hikmət Ziyanın qələmə aldığı təmsilləri ifa edirlər:*

**I oxucu: Ağır qarğış**

Bir kitab öyünürdü:
Həmişə təzəyəm mən!
Mətbəə ətri gəlir
Nəfis vərəqlərimdən.
Aylar keçir, il ötür,

Açılmayıbdır qatım.
Aynalı vitrinlərdə
Keçir bütün həyatım.
Gəl ki, bir gün eşitdi,
İki kitab savaşır,
Birisi o birinə
Qarğış edib, dalaşır:
Oxucular üzünə
Səni həsrət qalasan.
Kitab şkafında yox,
Vitrinlərdə olasan!..

**II oxucu: Sərçənin şairliyi**

Sərçə xeyli düşünüb, şöhrətə çatmaq üçün,
Ən nəhayət, şairlik eşqinə düşdü bir gün.
Əvvəl "cik – cik" edib özünü sınadı bir,
Düşündü ki: "Səsimin ahəngi yaxşı gəlir…
"El içinə çıxmalı əsər yaratsın deyə,
Aradı bir neçə söz, bir neçə də qafiyə.
Hey sındırıb başını elə ha yazdı… yazdı…
On vərəq qaraladı desəm, yenədə azdır.
Uçdu, Tovuzquşuna oxusun yazısını,
Bir ona da bildirsin şairlik arzusunu.
Xeyli də çəkdi onun şeirinin oxunuşu,
Qulaq asıb, başını buladı Tovuzquşu…
Bu hal bizim Sərçəni salmadı heç həvəsdən,
Qırqovulun yanına gəlib dedi o: - Qəsdən
Gözləri götürməyir, böyük addım atmışam,
Sən qulaq as bir mənə, gör nələr yaratmışam?!
Yazdığını oxudu, özündən bədgüman quş,
Amma qırqovula da sözləri gəlmədi xoş.

Göyərçin yuvasına üz qoydu bu an Sərçə,
Dedi: — Dinlə bir məni, bu haqsızlığa səncə,
Kim dözər, dözürəm mən! Bayaqdan gəzirəm mən,
Şeirimi bəyənməyir Tovuzquşu, Qırqovul…
Sən qulaq as bir mənə, amma ədalətli ol.
Söylə niyə boğurlar mənim təzə səsimi,
De, niyə söndürürlər çağlayan həvəsimi?!
Göyərçin dedi: - Yaxşı, oxu, feyziyab olaq,
Sərçə əl-qol ölçərək, coşdu, nə coşdu bu vaxt…
Göyərçin gördü, - onda nə ürək var, nə ilham,
Sağsanları göstərib, danışdı aram – aram
Dedi: – “Cik-cik…” sözləri bizə çoxdan tanışdır.
“Təzə səsim var” – dedin, məncə fikrin yanlışdır.
Sərçə qardaş, qulaq as, Şeiri yaratmaq olmaz,
- Təkcə “cik-cik” deməklə, Qafiyəni bilməklə.
Bu sözlər kar etmədi, düzü, Sərçəyə yenə,
O, şair olmasa da, Şeir nədir bilməsə də,
Yaman tutulmuşdu şeir xəstəliyinə.

**III oxucu :Yamsılamaq bəlası**

Toyuq baxıb Ceyrana,
Söylədi yana-yana:
Nola qaçışda elə
Mən də oxşayam ona!
Qaçıb lələyi sanı,
Yamsıladı Ceyranı.
Toyuq baxıb Qartala,
Getdi dərin xəyala:
Nola uca göylərdə
Elə uçuşum ola.
Uçub lələyi sanı,

Yamsıladı Qartalı.
Əfsus, bizim qəhrəman,
Çıxdısa da qabıqdan.
Nə Ceyran kimi qaçdı,
Nə Qartaltək ucaldı.
Qaçışdan da avara,
Uçuşdan da avara,
Toyuq olaraq qaldı.

**Barmaqlar**

**I oxucu:** Baş Barmaq
Baş barmaq baş olduğunu
Sözdə göstərdi, ona:
Boş Barmaq! – söylədilər.
Baş Barmaq Baş olduğunu işdə göstərdi, ona:
Baş Barmağa söylədilər.

**II oxucu: Şəhadət barmağı**
Doğru yol göstərəndə
Çox sevilir Şəhadət.
Yersiz hədələməyə
Etməyəydi o, adət!

**III oxucu: Orta Barmaq**
Bütün barmaqlardan o
Boyca böyük olsa da,
Göstərməyir özünü,
İtib-batıb ortada.

**IV oxucu: Adsız Barmaq**
Xeyli təşəxxüslüdür,
Şəst ilə baş əsdirir.
Nə olsun adı yoxdur?
Qızıl üzük gəzdirir.

**V oxucu: Çeçələ**
Çeçələ dedi:
Yumruq Üstümə düşür niyə?
Necə niyə?
Özündə Hərəkət yoxdur deyə!
**Beş Barmaq**
Beş Barmaq birləşərək
Qüdrətli Əl yaratdı.
Barmaqlardan hər biri
Böyük əməl yaratdı!
**I oxucu: "İki"nin məntiqi**
"2" kimə rast gəlsə,
Yolundan saxlayırdı.
Töküb qaşqabağını,
Burnunu sallayırdı:
Söylə görüm, a kişi,
Axı gündə bu "5"-i
Təriflərlər Nə qədər?!
Rəqəm deyilikmi biz?
Bəs bizim tərifimiz?
Məntiqi çatmırdı ki,
Başa düşə bu "2"
İki dəfə yarım o, "5"dən azdır, bəli az.
Hay-küy qaldırmaq ilə
Heç vaxt sevilmək olmaz!
**II oxucu: Ehtiyatlı qaz**
Bir gün tənqidçi Qaza Dedilər:
Möhtərəm Qaz, Xoruzun kitabından Bizə bir məqalə yaz.
Qaz razılıq vermədi: – Üz vurmayın boş yerə.
Məqaləni yazıram Klassik əsərlərə.

Müasir müəllifim Kinli yaddaşı olur.
Tənqid artıq düşəndə, Dava – dalasi olur…
**III oxucu: Suda boğulan hekayə**
Bir romanı sıxdılar,
Çıxartdılar suyunu.
Gördülər selə düşən
Hekayə olduğunu.
**I oxucu: Diqqət tələb edən pişik**
Pişik dedi: – Pələngəm!
Şübhə edənlər qalxsın,
Zəndlə, diqqətlə mənə
Mikroskop ilə baxsın!
**II oxucu: Özünə güvənən pələng**
Yerini rahatlayıb, Məşqə getmədi Pələng:
Görüşüm Meymunladır, O mənə nə edəcək?
Səhər onun başına Meymun bir oyun açdı!..
İkinci dəqiqədə Pələng mayallaq aşdı,
Yerə dəydi arxası... Özünə güvənəndə,
Belə olur, qadası!..
**III oxucu: Bülbül xorda**
Qarğa oxuyanlara,
Bir yol qiymət verirdi.
Kim qarıldamırsa da,
Onda nöqsan görürdü.
Növbə Bülbülə çatdı,
Qarğa özünü dartdı:
Hə, yaxşı oxuyursan,
Afərin sənə, urra!
Amma Qarğa deyilsən,
Səni yazıram xora!

**IV oxucu: Zooparkda görüş**

Zooparkda Qazı görüb qonşu qəfəsdə,
Tülkü lələ: – Nədir – dedi – ay boyu bəstə?
Axı səndən çox böyüyəm, kamalın hanı?
Bəyəm məni tanımırsan, salamın hanı?!
Qaz üzünü yana tutub söylədi bu dəm:
Tanıdığım üçün elə, salam vermirəm...

**V oxucu: Mərdanə cavab**

Çəkic Kəlbətinə zəng vurdu: – Alo!..
Bala, demək sən də qudurdun?
...Alo!.. Eşitmirsən, nədir? Cavab versənə!
Nəzakətli olun, nə olub yenə?!
Mən vuran Mismarı çıxartma, qağam!
Xeyr, əyri vursan, çıxaracağam!

**VI oxucu: Hədd**

Od bərq vurub parladı,
İşığa döndərdilər.
Od hərarət yaratdı,
Sobaya göndərdilər.
Od yandırıb-yaxdı,
Tez Su töküb söndürdülər...

**I oxucu: Küsən təpə**

Təpə Dağdan bərk küsdü,
Dedi: – Yaman dargözdü.
Dayanmır, ona çatım.
Mən nə qədər boy atım?!.

**II oxucu: Gürzə**

Gürzə hər vaxt gizlətməkçin
Çalmaq cinayətini,
“Müdafiə” adlandırır

Öz mənfur adətini.
**III oxucu: Qayçı və moda**
Qayçı elə günaşırı
Don biçirdi özünə.
Evdə qulaq tutulurdu
“Xırrıt-xırrıt” səsinə.
Saxlayıb öz işini,
Qaldıraraq başını,
Ona belə sual verdi
Bir gün Paltar maşını
Qayçı bacı, nə xəbərdir?
Qollarım əldən düşür.
Qayçı dedi: – Nə edim ki?
Gündə moda dəyişir.
Moddan düşən donlarımı
Üz edirəm mitilə.
Köhnə üzlər nə olur bəs?
Göndərirəm utilə...
**IV oxucu: Toyuq marağı**
Ördək Qazın kitabını
Təriflədi toyuğa:
Lələyinin tükü sanı
Qiyməti var, oxu ha!
Dimdikləyib sürət ilə,
Toyuq baxdı kitaba,
Qaqqıldadı həsəd ilə:
Sağ ol, Ördək, mərhaba!
Deyirsən ki, qiymətlidir?
Bəxtəvərin bəxti var.
Söylə, a Qaz, sən hələ bir,

Ördək nə qədər alar?
– Nə?
Kitaba qonarar?!.
**I oxucu: Sol əl özü haqda**
Sol əl: – Zəhmətkeşəm mən,
Qat-qat qonşum Sağ əldən!
Söyləyərək, şəst ilə Başını əsdirirdi.
Nə var, nə var, qolunda o, saat gəzdirirdi
**II oxucu: Dovğa və çömçə**
Daşdı qazanda Dovğa,
Öyündü lovğa-lovğa:
Görürsünüz, – hamıya necə can yandırıram?
Taxta Çömçə nəyimdir?! – Onu dolandırıram!
**II oxucu: Səviyyə**
Gölə yaxın meşədə Dovşan dedi Dələyə:
Baxırsan gölməçəyə?
Qurbağa səhər-axşam quruldadı o ki var.
Amma öz Bülbülümüz, – bu sevimli nəğməkar,
Xoş səsi ola-ola, hərdən bir "cəh-cəh" vurur,
Günlərlə susub durur,
Nədir bunun səbəbi?
Şəkləyib qulağını,
Dələ açdı mətləbi:
Görünür, Bülbülümüz qiymət qoyur səsinə,
İstəmir ki, "cəh-cəh"i,
Qurbağanınkı təki Düşsün, zəhlə aparan "qur-qur" səviyyəsinə.
**III oxucu: İki üz, iki söz**
Nə qədər ki, Fil Tülküyə dəyib-dolaşmayırdı,
Hər məclisdə yerli-yersiz, təriflər başlayırdı:
Dostlar, bunu yaxşı bilin, Sevimlimiz nəhəng Filin

Başı ağıl dəryasıdır, sınamışam bunu mən.
Çox sayıqdır, çox ayıqdır, tük yayınmaz gözündən.
Şirmayıtək dişləri var, Böyük də işləri var!..
Fil Tülkünün ayağını basdı bir gün nagahan,
Söz-söhbəti belə oldu bu Tülkünün o vaxtdan:
– Eh! Filin də adı çıxıb, Bir yaxından ona baxıb,
İki kəlmə xoş söz ilə heç dindirə bilmirəm,
Xortumuyla quyruğunu fərqləndirə bilmirəm...

**IV oxucu: Durğu işarələri**

Çox dolaşdı Nöqtə, Sual, Vergül, Nida...
Təklikdə ad qazanmadı bu dünyada.
– Gəlin verək özümüzü,
– Dedilər – söz arxasına.
Sancıldılar cümlələrin Yaxasına...

**V oxucu: Özünü görməmək**

İlbiz Tısbağanı görüb deyindi:
– A qardaş, yerişin yaman yeyindi.
Hara tələsirsən?
Tısbağa güldü.
Bir azdan tutuldu, ağzı büzüldü:
– Ağzı göyçəklərə söylə bu sözü,
Bəyəm bədxahların götürür gözü?!
– Ceyran da, Cüyür də məni qınayır,
Deyirlər, Tısbağa yerində sayır.
Eh! Yazıq canım, Kimə inanım?!

Uşaq kitabxanalarında yubiley münasibətilə təşkil olunacaq tədbirlərdən biri kiçik yaşlı oxucular üçün şeirlərin ucadan oxusudur. Şeirlərin ucadan oxusu uşaqların diqqətini cəlb edir, onlarda şeirə qulaq asmaq, şeiri duymaq, başa düşmək qabiliyyətini formalaşdırır. Şairin "Təmsillər" kitabındakı bəzi

şeirlərin – “Qeybətçi dovşanlar”, “Qoç və dəcəl çəpiş”, “Çaqqal” təmsil-nağılının ucadan oxusu məsləhətlidir. Şeir və nağılın ucadan oxusundan sonra uşaqlara suallarla müraciət etmək olar. Kitabxanada səhərciklərin hazırlanması da uşaqlar üçün maraqlı olar. Hikmət Ziyanın “Qeybətçi dovşanlar” təmsili əsasında kiçikyaşlı qrup oxucular üçün səhnələşdirilmiş səhərciyi təqdim edirik.

*Üç kiçik yaşlı oxucunun ikisi ağ və boz dovşanın, biri isə bülbülün sözlərini deyir.*

**I oxucu (Ağ dovşan)-** Dələ çıxır oyuqdan,
Canı çıxır istidən.
Ora-bura boylanır,
Dinclik bilmir bayaqdan.
Gözü kimisə gəzir,
Düşüb əldən-ayaqdan.

**II oxucu (Boz dovşan)-** Xəbərin yox xəbərdən.
Tısbağa hey gəzişir
Xəzəllikdə səhərdən.
Bir şabalıd düşmüşdü
Bu saatca budaqdan.
Tez başını çıxartdı
O görməmiş, çanaqdan.
Bu astaca yerişli,
Cumdu şabalıd üstə,
Baxıb eyhamla güldü
Ona zor Palıd üstdən.

**I oxucu (Ağ dovşan)-** Ay Boz Dovşan, doğrusu,
Xəbərini xoşladım!
Onda sənə deyim ki,
Məndə xəbər var, xəbər!

**II oxucu (Boz dovşan)-** Nədir o? Söylə görüm!

**I oxucu (Ağ dovşan)-** Nə olacaq?! Müxtəsər,

Miyoldayıb deyir ki,
Bizim Meşəpişiyi
Guya tək o qoruyub
Burda evi-eşiyi.

**II oxucu (Boz dovşan)-** Hə, mən də eşitmişəm
Ay Ağ Dovşan, bu sözü.
Meşəpişiyinə heç
İnanmıram mən düzü.
Özünü o çox öyür
Meşəboyu hər yanda.
Pişikliyi duyulur
Ancaq miyoldayanda...

**I oxucu (Ağ dovşan)-** Hələ xəbərin yoxdur
Qonşumuz köstəbəkdən,-
Yorulmur səhər-axşam
"Mənəm!..Mənəm!.."
deməkdən.
Əlindən heç nə gəlmir,
Elə öyür özünü.

**II oxucu (Boz dovşan)-** Hə, bəyənirəm sözünü.
Yaman boşboğazdı o,
Yaman hoqqabazdı o

**III oxucu (Bülbül)-** Bəsdirin! Deyinməyiniz bizi
Baş-qulaqdan eylədi.
Bir kəlmə demirsiniz
Gərəkli işinizdən.
Axı kimə nə fayda
Boş-boş qeybətinizdən?

Səhərcikdən sonra kitabxanaçı təmsilin mahiyyətini oxuculara başa salmalıdır. Onlara tövsiyə etməlidir ki, hər kəs öz işi ilə məşğul olsa boş-boş söhbətlərə vaxt itməz və sən də faydalı bir işlə məşğul olub həm özünə, həm də başqalarına xeyir verə bilərsən. Hikmət Ziyanın qələmə aldığı komediyaların, ssenari müəllifi olduğu filmlərin, təmsilləri əsasında çəkilmiş

cizgi filmlərinin nümayişinin kitabxanada keçirilməsi məqsədəuyğundur. Uşaq kitabxanalarında Hikmət Ziyanın təmsilləri əsasında çəkilmiş cizgi filmləri və yaxud ssenari müəllifi olduğu filmlər həftəsinin də, təşkili balaca oxucularımızın şairin yaradıcılığı ilə daha yaxından tanış olmağa imkan verir. *(Eyibsiz meymun, Dəcəl dovşan, Hər kəsin yerişi var, Yaxşılığa əvəz, Kirpinin düz sözü);(Qərib cinlər diyarında) və s.*

Uşaq kitabxanalarında Hikmət Ziyanın yaradıcılığını oxuculara daha yaxından tanıtmaq məqsədilə şairin qələmə aldığı kitabların icmalının keçirilməsi də məqsədəuyğundur.

Hikmət Ziyanın yaradıcılığına nəzər saldıqda şairin uşaqlar üçün yazdığı çoxlu sayda tapmacalara rast gəlinir. Tapmacalar əsasında orta yaş qrup oxucular üçün viktorinaların təşkili daha yaxşı olar. Viktorinanın sualları ədəbi-bədii gecədə uşaqlara təqdim olunarsa ədəbi-gecənin daha maraqlı keçməsinə səbəb olar. (Bax: ədəbi-bədii gecənin ssenarisi)

Ədəbi-bədii gecə oxucular tərəfindən ən çox sevilən tədbirlərdəndir. Hikmət Ziya poeziyasının təbliğində uşaq kitabxanalarında ədəbi-bədii gecələrin keçirilməsi çox maraqlıdır. Bu tədbirə həm kitabxanaçılar, həm də oxucular həvəslə hazırlaşırlar. Ədəbi-bədii gecənin keçirilməsində əsas məqsəd oxuculara şairin həyat və yaradıcılığı haqqında məlumat verməklə bərabər, həm də onun şeirlərini, təmsillərini təbliğ etməkdir. Ədəbi-bədii gecəni **"Özlüyümdə damla kimi kiçiyəm, xalqımla ən böyük bir dənizəm mən"** adlandırmaq olar. Tədbirdə şairin həyat və yaradıcılığı haqqında çıxışlar olunmalı, şairin şeirləri və şeirlərinə bəstələnmiş musiqilər səslənir, oxucular tərəfindən hazırlanmış kiçik səhnələr göstərilir. Şairin qələm dostları tədbirə dəvət olunarsa daha maraqlı olar. Kitabxanaçılara kömək məqsədilə ədəbi-bədii gecənin ssenarisini veririk.

**I aparıcı:** Əziz məktəbli kitabsevərlər! Ulu təbiətin qış yuxusundan oyandığı, ağacların əlvan çiçəklərə büründüyü,

əkinlərin, otlaqların daha da yaşıllaşdığı bu gözəl bahar günlərində uşaqların sevimli şairi Hikmət Ziyanın yubileyində hər birinizi xoş gördük!

**II aparıcı:** Hikmət Ziya dedikdə, maraqlı və məzəli təmsillərin, gözəl məhəbbət şeirlərinin, həmin şeirlərə bəstələnmiş gözəl musiqilərin, "Qonşu qonşu olsa, kor qız da ərə gedər", "Saqqalın kəraməti", "Pul dəlisi" komediyalarının, "Dəcəl dovşan", "Qərib cinlər diyarında" filmlərinin ssenari müəllifi göz önünə gəlir.

**I aparıcı:** Hikmət Ziya dedikdə, Azərbaycan torpağını hərarətlə vəsf və tərənnüm edən, onun təbiətini özünəməxsus poetik boyalarla canlandıran bir şairi düşünürük.

**II aparıcı:** Hikmət Ziya dedikdə, Sabir ədəbi məktəbinin davamçısı olan, yaşadığı dövrdə cəmiyyətdə, ictimai həyatda gözə dəyən nöqsanları, eyibləri tənqid edən satirik şairi yad etmiş oluruq.

**I aparıcı:** Hikmət Ziya dedikdə, Azərbaycan uşaq ədəbiyyatı, xüsusilə uşaq poeziyası sahəsində qələm çalmış bir şair yada düşür.

**II aparıcı:** Nəhayət, Hikmət Ziya dedikdə, Azərbaycan ədəbiyyatında təmsil janrını daha da yüksəldən, bu sahədə yaranan ənənələri davam etdirən, yeni bir məcraya yönəldən əvəzsiz bir sənətkar haqqında söz açmış oluruq.

*Oxucu "Vətən" şeirni söyləyir.*

Mən atasız qalmışam,
İllər ovudub məni.
Mən anasız olmuşam,
Ellər ovudub məni.
Ancaq bir an, bircə an
Doğma Vətənsiz olsam,
Qoynunda çiçəklənən
Bağsız, çəmənsiz olsam,
Heç nə ovutmaz məni –

Ya buz bağlar, donaram,
Ya alışıb yanaram!

*Sözləri H.Ziyaya,, musiqisi Nəriman Əzimova məxsus "Ürək sözlərim" mahnısı səslənir.*

**I aparıcı:** Hikmət Ziyanı oxucularımız qüdrətli təmsil ustası kimi tanıyır və sevirlər. O, ömrünün 35 ilini təmsilə həsr etmişdir. Şair bu janrda bir-birindən gözəl nümunələr yaratmışdır. Onun irili-xırdalı hər bir təmsilində gözəl, nəcib hisslər aşılanır. Yaramaz əməllər, insanlığa xələl gətirən sifətlər pislənir. "Uçmayan quşlar", "Sirli səbəb", "Özünü tənqid edən tülkü", "Hindən məktub", "Həmişə haqlı dovşan" və başqa təmsillərdə dərin, mənalı fikirlər söylənilir.

**II aparıcı:** Hikmət Ziyanın təmsillərində timsah qorxaq, qaz boşboğaz, pişik özgəsinin kölgəsində dolanan, çanaqlı bağa ikiüzlü, cücə səfeh, qarğa xəbis, qurd amansız, tülkü hiyləgər kimi göstərilir. Təsvir edilən heyvanların hər biri öz xüsusiyyətlərinə görə səciyyələndirilir. Hikmət Ziya ictimai həyatdakı hadisələr haqqında da təmsil dili ilə, uşaqların başa düşəcəyi bir dildə sadə, lakin dolğun və mənalı biliklər verir. Uşaqlara Hikmət Ziyanın bu həcmcə kiçik əsərlərindən böyük mənalar əxz edilir. Şair oxucularına təlqin edir ki, cəmiyyətdə bir-birinə zidd fikirlər olduğu kimi, bir-birinə zidd insanlar da vardır. Bu mənfi ünsürlər cəmiyyətin inkişafına və insanların xoşbəxt yaşamalarına mane olur. Belə adamları Hikmət Ziya tənqid vasitəsilə haqqa, ədalətə tapınmağa çağırır.

*"Ağıllı kirpilər" səhnəciyi göstərilir. Səhnəcikdə beş oxucu iştirak edəcək: ikisi kirpi, biri dovşan, biri tülkü, biri isə çaqqalın maskasını üzlərinə taxıb rollarını ifa edirlər. Səhnə meşəni təsvir edən dekorasiya ilə bəzədilir. Dovşan mahnı oxuya-oxuya səhnəyə daxil olur.*

**Dovşan:** Uzunqulaq dovşanam,
Palazqulaq dovşanam!

İpək olar tükümdən,
Canavardan, tülküdən
Bir də, bir də ovçudan
Çox yaman qorxuram mən!

*Elə bu vaxt quyruqları dibindən qopmuş Çaqqalla Tülkü bağıra-bağıra səhnədən keçib gedirlər. Dovşan gizlənir.*

**Tülkü:** Ay, öldüm! Vay öldüm!

**Çaqqal:** Bu baharda, bu yazda
Qopdu quyruğumuz da!

*Səhnədə iki kirpi görünür. Onlardan biri Çaqqalın, o biri isə Tülkünün quyruğunu toqqa kimi belinə bağlamışdır.*

**I Kirpi:** Çaqqala bax, Çaqqala,
Yıxılacaq az qala!
Bax, beləcə qaçarsan!
Başına iş açarsan!

**II Kirpi:** Ay hiyləgər Tülkü, sən,
Niyə belə hürkmüsən?
Hiylən ki, baş tutmadı,
Sən arzuna çatmadın!...

*Dovşan gizləndiyi yerdən çıxıb, atıla-atıla kirpilərə yaxınlaşır.*

**Dovşan:** Ay çuxası tikanlı, qəşəng kirpilər, kefiniz niyə belə kökdür?
**I Kirpi:** Çaqqalın başına oyun açmışam!
**II Kirpi:** Mən də Tülkünün!
**Dovşan:** Necə oyun?
**I Kirpi:** Biz onlara kələk gəlib

quyruqlarını əllərindən almışıq.

**Dovşan:** Danışın da. Bu necə olub?!

**II Kirpi:** Hə, palazqulaq, tüküyumşaq Dovşan bacı, elə isə yaxşı-yaxşı qulaq as. Biz meşədə gəzişirdik. Birdən...

*Dovşan səhnənin bir küncünə çəkilir, kirpilər söhbət edə-edə gəzişirlər. Səhnənin o biri küncündə Tülkü ilə Çaqqal pıçıldaşırlar.*

**Çaqqal:** Tülkü lələ, hiylə işlətməkdə sən ustasan, necə edək ki, kirpilər başlarını tikanlı dərilərindən bayıra çıxarsınlar, biz də boğazlarından yapışıb onları iştahla yeyək?!

**Tülkü:** Ardımca gəl. Mən nə desəm, sən dinməz-söyləməz qulaq as. (Hər ikisi kirpilərə yaxınlaşır) Ay xoş gördük, zərif tikanlı əziz kirpilər. Biz Çaqqal dostumla birlikdə sizinlə gizlənqaç oynamağa gəlmişik.

**Çaqqal:** Hə, Tülkü lələ düz deyir. Başınızı qınınızdan çıxardın. Şərt kəsək, oyunumuza başlayaq.

**Tülkü:** (Dişlərini Çaqqala qıcıyaraq) Sən sus! (Üzünü kirpilərə tutur). Hə, Kirpi qardaşlar, nə deyirsiniz. Bizimlə oynamaq istəyirsiniz?

**I Kirpi:** Hə, istəyirik.

**II Kirpi:** Ancaq gizlənqaç oynayanda ora-bura qaçmalıyıq. Bizə istidir. Gərək tikanlı qınımızdan çıxaq.

**Çaqqal:** (Əlini-əlinə vurub sevinir). Çıxın da, lap yaxşı!

**Tülkü:** (Yenə dişlərini Çaqqala qıcıdır). Bəlkə sizə tikanlı dərinizdən çıxmağa kömək edək, hə?!

**I Kirpi:** Qoy hərəmiz sizin hər birinizin quyruğunuzdan yapışaq, dartıb çıxardın.

**Tülkü:** Lap yaxşı! Başladıq.

*Çaqqal I Kirpiyə, Tülkü II Kirpiyə yaxınlaşır. Kirpilər dişləri ilə onların quyruqlarından yapışıb qınlarına çəkilirlər. "Vay-vay! Ağrıdır!"-deyə, Çaqqalla Tülkü qışqırışırlar. Kirpilər onların quyruqlarını dala çəkir, Tülkü ilə Çaqqal isə qabağa çəkirlər. Quyruqlar qopur, dad-fəryad edə-edə quyruqsuz qaçırlar.*

**Dovşan:** Çaqqal ilə Tülküyə bu da azdır! Onlara yaxşı divan tutmusunuz!

*Aparıcılar səhnəyə daxil olur.*

**I aparıcı:** Hikmət Ziya öz əsərlərində əsasən zəmanənin aktual problemlərinə toxunmuş, onların bədii həllini verməyə çalışmışdır. Hikmət Ziyanın sənətkarlığının böyüklüyü ondadır ki, kiçik həcmli əsərlərində böyük fikirləri çox sadə, səlis, lakonik bir dildə oxucularına çatdırır.

**II aparıcı:** Hikmət Ziya milli musiqi alətlərimizi uşaqlara daha yaxından tanıtmaq və sevdirmək üçün gözəl şeir nümunələri yaratmışdır. Uşaqlar bu şeirləri dinlədikdə milli musiqi alətlərimizin xalqımız üçün necə dəyərli olduğunu anlayır, bu

alətlərdə çalmağa və yaxud bu alətlərdə musiqi, nəğmə dinləməyə həvəslənirlər.

**I aparıcı:**

Azərbaycan xalqının
Musiqi alətləri
Oxşayır
Ürəkləri
Min-min illərdən bəri.
Neçəsinin adını
Çəkim şeirlə qısaca.
Qədrini-qiymətini
Unutma boy atınca.

*"Nəğmə ötən alətlər" şeiri əsasında hazırlanmış musiqi alətlərinin paradı başlayır. Hər bir oxucunun yaxasında musiqi alətlərdən birinin şəkli sancılıb.*

**Tar:**

Nə qədər muğam var,
Nə qədər mahnılar...
Hər kövrək telində -
Şipşirin dilində.
De, sevməz onu kim!
Qoşa sim, sarı sim
Nəğməylə dad eylər,
O neçə tarzəni
Sadıqcan, Qurbanı,
Bəhramı, Hacını,
Yad eylər.
Müşfiq bir şeir söylər:
"Oxu tar, oxu tar,
Səni kim unudar!"

**Saz:**

Bir qucaqdır bax, çanağı,
Bir qucaqdır düz, çanağı.
A dost, çünki –
Yetmiş iki
Saz havası çalır axı,

Birisi də itən deyil.
Hər birinin yoxdur misli
“Kərəmi”. “Qaraçı”, “Misri”
Saymaq ilə bitən deyil.
Hər pərdədə sözləri var.
Ələsgər,
Alı,
Cumanın
Barmağının izləri var
Bilmək istəyirsən əgər
Sazda olan min qüdrəti,
Dinlə axşam dinlə səhər
Saz çalanda, Ədaləti...

**Nağara:**

Qara zurnayla qoşa
Dillənir coşa-coşa.
Bir aləmdir nağara
Hər şənliyə, mağara
Gum-gumla,
Dumba-dumla
Coşqun avaz gətirər,
Qışda da yaz gətirər...
Nağara çalan Çingiz
Çalır onu əvəzsiz.

**Qara Zurna:**

Dillənsə qara zurna,
Bir səs çatarmı ona!!
Əgər dinərsə zildən,
Böyük bir orkestdən
O daha gur səslənər.
Xoş avazı,
Xoş səsi
Ürəklərdə bəslənər.
Bu səs Azərbaycanın
Min illik cəngisidir.
Ölməz Koroğlumuzun

Düşmənə həmləsidir!

**Ney:** Yorulma, qulaq as hey.
Nə kövrək səslidir ney...
O dillənəndə nazla,
Ruhu oxşar avazla.
Qışda da yaz gətirər...
Gözünün qabağında
Dağ-dərə çiçəklənər,
Qızılgül ləçəklənər...

**Tütək:** De, harda görünübdür
Bu musiqi aləti?
Öz yerindən oynadır
Bütün eli-elatı.
Qoyun-quzuların da
Bil, xoş olar ovqatı.
Əgər tütəkdə çalsan
Sən bir "Çobanyastığı".

**Qaval:** Qavala bax, qavala,
Ötəndə şən havalar!..
Bu nərmə-nazik pərdə,
Şəfa verər min dərdə.
Dinləyən deyər aşkar:
- Ruhum bədəndə oynar,
- Qavalımız dinəndə!
- Durub oynaram mən də...

**Kanon:** Beş tel, on tel azlıq edir,
İyirmi dörd teli vardır.
Alətlərin arasında
Öz xüsusi yeri vardır.
Sola çala,
Heyran ola
Hamı onun xoş səsinə.
Bülbüllər də
Cavab verər

Kanonumun nəğməsinə!...

**Qoşanağara:** Çox da ki, simi yoxdur,
Pərdəsiylə söz deyər.
Çubuqları yavaş vur,
Birdən səndən inciyər.
Yox-yox, qoşa çubuqlar
Mizrabıdır, inciməz,
Tarla, kamança, qaval
Öz babıdır, inciməz.
Bu dördlüyü dinləyən:
Əhsən söyləyər, əhsən!

**Qarmon:** Azəri ellərində, -
Şirmayı dillərində
Avazı incə qarmon...
Nəğmə ötdükcə qarmon...
Xəyallara dalarsan,
Ondan ilham alarsan.
Hər dilinin qatında,
Hər dilinin altında
Şirin söz, kəlmə yatar,
Neçə xoş nəğmə yatar.
Əhəd, Teyyub, Avtandil...
Ustadları çoxdu, bil.

**I aparıcı:** Görürsünüzmü, bizim necə böyük ustadlarımız və gözəl musiqi alətlərimiz var. Gəlin bu alətlərin ifasında Hikmət Ziyanın sözlərinə bəstələnmiş mahnıları dinləyək.

*Sözləri Hikmət Ziyanın, musiqisi Nəriman Məmmədovun "Mən sənsiz, sən də mənsiz" mahnısı səslənir.*

**I aparıcı:** Hikmət Ziya uşaq psixologiyasına dərindən bələd olan şairlərdəndir. Uşaqlar aləminə yaxşı bələd olan şairin xalq nağılları, əfsanələri əsasında yazdığı əsərləri yalnız uşaqlar deyil, böyüklər də həvəslə oxuyurlar. Xüsusilə kiçik həcmli

tapmacaları azyaşlı uşaqlar daha çox sevirlər. Bu tapmacalar uşaqların zehinlərini inkişaf etdirir, onları fikirləşməyə, düşünməyə vadar edir. Əşyanın sadalanan əlamətinə görə adını müəyyənləşdirmək uşaqların öz ixtiyarına buraxılır.

**II aparıcı:** İndi biz sizə həmin tapmacalardan deyəcəyik. Cavabı düzgün tapan gözəl hədiyyələr qazanacdır. Razısınızmı uşaqlar? (uşaqlara üzünü tutur). Onda başlayaq.

Göydə bir od gurladı,
Hər tərəf parıldadı. (ildırım)

**I aparıcı:**

Göydə tüstü göründü,
Əriyib suya döndü. (bulud)

**II aparıcı:**

Əgər inanmayırsan,
Sına bunu sən özün.
Köynəyini çıxartsan,
Yaşaracaqdır gözün. (soğan)

**I aparıcı:**

İl adlı bir ananın
Dörd əziz balası var,
Hər birisi onların,
İldə üççə ay yaşar. (İlin fəsilləri)

**II aparıcı:**

Çox da ki, tək yeyilməz,
Onsuz xörək yeyilməz. (duz)

**I aparıcı:**

Göylərdən un ələnir,
Ulduz tək dənələnir.
Hər bir dənə ağ olur,
Qalaqlanıb dağ olur. (qar)

**II aparıcı:**

Xoşdur duruşu,
Xoşdur uçuşu.

Ellər adına
Deyir: - Sülh quşu! (göyərçin)

**I aparıcı:** Göydə qırmızı fətir.
Hər yana işıq səpir, -
Tap görüm, nədir? (günəş)

**II aparıcı:** Yerdən göyərir çətir,
Get, səbətə yığ gətir, -
Tap görüm, nədir? (göbələk)

**I aparıcı:** Bir topum var ağ,
Öz kefinə bax.
Ya cücə olar,
Ya da qayğanaq. (yumurta)

*Cavabı tapan uşaqları aparıcılar səhnəyə dəvət edir və onlara hədiyyələr verir.*

**II aparıcı:** Hikmət Ziya yaradıcılığının mövzu və problematikası zəngindir. Onun yaradıcılıq nümunuləri arasında ictimai-siyasi mövzuda yazdığı əsərlər xüsusi yer tutur. Hikmət Ziya xalqımızın milli-mənəvi dəyərlərini heç zaman unutmamış, azərbaycançılıq ideyası onun bütün yazılarının cövhərini, mayasını təşkil etmişdir. Onun şeirlərində Azərbaycan təbiətinin gözəllikləri böyük məhəbbətlə tərənnüm olunur. Şairin Qobustana, Qarabağa, Şəkiyə, Mingəçevirə, Azərbaycanın digər guşələrinə həsr etdiyi şeirlərdə vətən torpağını məhəbbətlə tərənnüm edən bir yaradıcı insanın ürək döyüntülərini eşidirik. Qarabağı "Azərbaycanın solmaz gülzarı" deyə vəsf edən şair doğulduğu Şəkini də eyni məhəbbətlə tərənnüm edir.
**I aparıcı:** Hikmət Ziyanın poeziyasındakı lirik ovqat, axıcılıq, hiss və düşüncələrin incə ştrixlərlə verilməsi bəstəkarlarımızın diqqətindən yayınmamışdır. Görkəmli bəstəkarlarımızdan Arif

Məlikovun, Süleyman Ələsgərovun, Sevda İbrahimovanın, Musa Mirzəyevin, Emin Sabitoğlunun, Ağabacı Rzayevanın, Əfsər Cavanşirovun, Hökumə Nəcəfovanın, Oktay Zülfüqarovun, Hacı Xanməmmədovun, Nəriman Məmmədovun və başqalarının Hikmət Ziyanın sözlərinə yazdıqları mahnılar uzun müddət tanınmış müğənnilərin repertuarından düşməmişdir. "Unutmarıq", "Bahar nəğməsi", "Solmazın mahnısı", "Sənin qəlbindən keçir", "Bəxtiyarlığım", "Sən olmasan", "Gözümdəsən", "Şirin yuxum olasan", "Yeganəm", "Qəşəng qız", "Gəl öyrət mənə", "Sən məni yad etsən", "Xoş gəlmisən", "Ay yaraşıqlı", "Mən sənsiz, sən də mənsiz" və s. bu kimi məşhur mahnıların sözləri Hikmət Ziyay məxsusdur.

**II aparıcı:** Şairin "Məhəbbətsiz dünya bir heçə dönər", "Bağışla, ürəyim, məni bağışla", "Sənsizləşən günlərim", "ən tək duyan olarmı", "Küsüşdük, barışdıq", "Bilmədin qədrimi sən", "Qovuşsaq", "Könlüm səni unutmaz" və s bu kimi onlarla şeirində sevən, sevilən, sevgi əzabları çəkən, məhəbbətinin yolunda bütün çətinliklərə mətanətlə sinə gərən bir ürəyin döyüntülərini eşitməmək mümkün deyil.

**I aparıcı:** Şair Hikmət Ziaynın kino yaradıcılığında da böyük uğurları vardır: "Əli-Bayramlı", "Azərbaycan qadını" "Dəcəl dovşan", "Qərib cinlər diyarında". Bu filmlər arasında onun ssenarisi əsasında C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası tərəfindən 1978-ci ildə çəkilmiş "Qərib cinlər diyarında" filmi uzun illərdir ki, həm uşaqlar, həm də böyüklər tərəfindən sevilə-sevilə baxılır. Uşaqlar, yadınızdadır? Film var-dövlət arzusu ilə yaşayan kasıb kəndli balası – Qərib haqqında söhbət açır. Günlərin birində gəncin arzusundan xəbər tutan cinlər padşahı Akşad onu öz diyarına dəvət edir və gəncə çoxlu var-dövlət verəcəyini bildirir, amma bir şərtlə: oğlan cinlərə taxıl əkməyi və çörək bişirməyi öyrətməlidir. Gənc razılıq verir.

**II aparıcı:** Beləliklə, ilk baxışda elə görünür ki, o, məqsədinə çatıb, istəyinə nail olub. Lakin çox keçmir ki, Qərib evləri üçün darıxmağa, anasını, sevgilisini tez-tez xatırlamağa başlayır. Yalnız bu zaman o, başa düşür ki, dünyada Vətəndən əziz heç nə yoxdur və ola bilməz. Satirada Hikmət Ziyanın yolunu davam etdirən tanınmış şair, təmsilçi Mərkəz Qacarın şairə həsr etdiyi "Təqib" dramını oxuduqda bu hisslərin bir daha şahidi oluruq. Hikmət Ziya üçün Vətəndən əziz heç nə olmadığı aydın olur.
*Mərkəz Qacarın "Təqib" dramından bir parça göstərilir. Tamaşa bitdikdən sonra bir oxucu şairin "Ömrümün payı" şeirini söyləyir.*
**I aparıcı:** "Nənəmin nağılı" həm uşaq ədəbiyyatımızın, həm də məllifin yaradıcılığının bədii uğurlarından biri olmuşdur. Yalnız bunu demək kifayətdir ki, bu nağıl əsasında müəllifin yazdığı librettoya bəstəkar Sevda İbrahimova maraqlı və uğurlu uşaq operası yazmışdır. Opera ilk dəfə Özbəkistan, sonra isə Azərbaycan səhnəsində tamaşaya qoyulmuş və ən yaxşı uşaq operası kimi balaca tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

*"Nənəmin nağılı" əsərindən bir parça təqdim olunur.*

**II aparıcı:** Hikmət Ziya öz şeirlərində balaca qəhrəmanın bədii obrazını yaratmağı, onun arzu və düşüncələrini əks etdirməyi bacarır. Onun bu tipli əsərləri nəinki uşaqları, hətta böyükləri də düşündürür. Məsələn, "Günayın rəsmi" adlı şeirə nəzər salaq:

Balaca rəssam Günay
Saçlarını hörürdü.
Kibrit qutusu üstdə
Od - alov şəkli gördü.
Sözləri də qaçmadı
Nəzərindən Günayın:
"Uşaqları od ilə
Oynamağa qoymayın!"
Alnını qırışdırıb,
Günay qaşını çatdı.

Kibrit qutusu üçün
Təzə rəsm yaratdı.
Atom bombası çəkib,
Üstən çarpaz xətt atdı.
Sözləri də bu oldu
Öz rəsminə Günayın:
"Böyükləri od ilə
Oynamağa qoymayın!"

**I aparıcı:** Hər bir bədii əsərə qələm sahibinin arzu və düşüncələri, həyata cəmiyyətə baxışı ilə bərabər, yaradıcı insanın ruhu da hopur. Hikmət Ziya xalqını dərin məhəbbətlə sevən, həssas, kövrək, xeyirxah, hazırcavab, eyni zamanda cəmiyyətin pisliklərinə qarşı barışmaz mübarizə aparan ziyalı idi. Üç mindən çox irili-xırdalı təmsilin, gözəl şeirlərin müəllifi olan Hikmət Ziya oxucuların məhəbbətini əbədi qazanmışdır.

**II aparıcı:** Azərbaycan uşaq ədəbiyyatında sanballı əsərlər yaradan, nəcib və yüksək hisslərlə ömrünü başa vuran böyük sənətkarımız Hikmət Ziyanın şeirləri həmişə sevilə-sevilə oxunacaqdır. Hikmət Ziya Sabirdən sonra təmsil janrında yazan ən görkəmli şairimizdir. Sevimli şairimiz özünün gözəl şeir, təmsil, poemalarında və əlbəttə ki, bəstəkarlarla birgə yazdığı nəğmələrində həmişə yaşayacaq!

## Ədəbiyyat siyahısı


***Əsərləri***

Seçilmiş əsərləri. - Bakı : Aspoliqraf, 2014. - 464 s. : - (qalın cildli)

**C.1** : Təmsillər. – 464 s.

**C. 2 :** Təmsillər. - 480 s.

**C. 3**: Təmsillər. - 440 s.

***Kitablarda***

**Ay ; Yamac ; Çay və b. şeirlər // Məmmədova Ş.** Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 3 cilddə. - Bakı : [s. n.], 2018. – C. 2 : Müasir uşaq poeziyası. – S. 176-201. - (Uşaq ədəbiyyatı).

Birinci zəng ; Sevimli məktəb ; Qaya və ağac və b. şeirlər // Azərbaycan uşaq ədəbiyyatı. 3 cilddə. – Bakı : Öndər, 2004. – C.2 : XX əsr uşaq ədəbiyyatı. - S. 213-221.

Günayın rəsmi ; Yeni il ; Maska və b. şeirlər //Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 2 cilddə. - Bakı : Renessans, 2016. – C. 2 : Klassik və müasir uşaq poeziyası. – S. 177-184.

***Əsərləri dövri mətbuatda***

Atamın hədiyyəsi; Bal arısı; Sünbülüm : Gənc şairin ilk kitabı // Kaspi. - 2018. - 13 oktyabr. - № 172. - S. 23.

Bacılar və qardaşlar ; Pis karandaş : hekayələr // Göyərçin. - 2018. - № 1. - S. 15.

Bir qom bənövşə : şeir // Göyərçin. - 2016. - № 3. - S. 12.

Birinci zəng ; Sevimli məktəb ; Qaya və ağac və s. : şeirlər // Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. - Bakı : Öndər, 2004. - C.2. - S. 213-221.

Çiçəklər ; Yorulmaz nəğməkar // Göyərçin. - 2018. - № 9. - S. 3.

Dənizin də dili var ; Ələklə söhbət ; Buğda dəni və b. şeirlər // Göyərçin. - 2014. - № 5/6. - S. 4.

Göy çəmən : şeir // Göyərçin. - 2018. - № 3. - S. 2.

Məzəli əhvalat // Göyərçin. - 2016. - № 3. - S. 13.

Müəllimlərim : şeir // Azərbaycan Müəllimi. - 2014. - 24 yanvar. - № 3.

Sağ ol, Göyərçin : (səhnəcik) // Göyərçin. - 2017. - № 9. - S. 8-9.

Təzə ilim : şeir // Göyərçin. - 2017. - № 1. - S. 2.

***Haqqında***

**Hikmət Ziya (1929-1995) //** Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 2 cilddə. - Bakı : Renessans, 2016. – C. 2 : Klassik və müasir uşaq poeziyası. – S. 177.

**Yusifoğlu R.** Hikmət ziyası : şair, publisist, dramaturq Hikmət Ziya haqqında // Ədəbiyyat qəzeti. - 2014. - 16 may. - № 18. - S. 11.

**Yusifoğlu R.** Hikmət Ziya // Uşaq ədəbiyyatı. - Bakı : Təhsil, 2002. – S.142.

**Namazov Q.** Hikmət Ziya (1929-1995) // Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. - III hissə : Sovet dövrü uşaq ədəbiyyatı, VII fəsil. - S. 403-409.

# Mahir təmsil ustası – Hikmət Ziya

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 07
Çapa imzalanmışdır: 21.01.2019
Tirajı:100
Pulsuz